*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**

DİN DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

№ 6 (670)

30 mart 2024-cü il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# BÜTÖV AZƏRBAYCANIN ZƏFƏR TONQALI

## Qalib Lider İlham Əliyev Xankəndidən bir daha dünyaya "Qarabağ Azərbaycandır!" ismarıcını verdi

**"Azərbaycan" qəzetinin müxbiri Yasəmən Musayevanın müəllifi olduğu "Bütöv Azərbaycanın Zəfər tonqalı" başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq oxucularımıza təqdim edirik.**

"Dördüncü dəfədir ki, bayram tonqalını mən azad edilmiş Qarabağ torpağında qalayıram. 2021-ci ildə Şuşada, 2022-ci ildə Suqovuşanda, keçən il Talış kəndində, bu dəfə isə Xankəndi şəhərində bayram tonqalı qalanır. Bu, böyük xoşbəxtlikdir".

2024-cü il martın 18-də Xankəndi şəhərində Novruz tonqalını alovlandıran Müzəffər Ali Baş Komandan İlham Əliyev Zəfər meydanından Vətən qürurunu bölüşdü, Azərbaycan xalqına bayram təbriklərini çatdırdı. Onilliklərin ardından bu Novruzun bütün Azərbaycanda keçirilməsindən doğan xoşbəxtliyini dilə gətirən Qalib Lider fəxr hissi ilə azərbaycanlıların bu xan şəhərindən bütün dünyaya "Qarabağ Azərbaycandır!" ismarıcını səsləndirdi. Xankəndidə qaladığı müqəddəs tonqalın gur işığı ilə dosta sevinc, düşmənlərə gözdağı verdi. Vətənin bütövlüyü uğrunda canlarından keçən və təqvimdəki qara həşiyəli günlərimizi bayrama çevirən şəhidlərimizin ruhunu şad etdi.





### Bu Novruzun bir başqa təmtərağı var

İndi yaşıl donlu, gül-çiçək ətirli bahar elimizə bir başqa təntənə, növraqla qədəm basıb. İlin bu vədəsi adətən, qaş-qabaqlı olan günəş zərrin şəfəqləri ilə ana torpağa nur çiləyir, ağaclar sevinclə tumurcuq gözlərini açır, ala-ala talalardan zərif bənövşələr boy atır. Göylərdən nur ələnir, Qarabağdan, Şərqi Zəngəzurdan baş götürən iliq yaz meh bir yurdumuzun dörd bir yanına burum-burum Vətən ətri yayır.

Şuşada, Xankəndidə, Xocalıda, bütün Azərbaycanda çatılan Zəfər, Novruz tonqallarının şöləri xalqımızın ruhuna, qəlbinə xoşbəxtlik saçır.

İllərlə bu günlərin həsrətilə yanıb-qovrulmuşduq. Bir müddət idi ki, xalqımız coşqu ilə bayram keçirməyi, şadlanmağı yadırğamışdı. 1990-cı illərin əvvəllərində yenicə müstəqillik qazanıb qədim el bayramlarımıza qovuşsaq da, bu xoşbəxtliyimiz çox uzun sürməmişdi.

Bir-birinin ardınca faciələrə tuş gəlmişdik. Torpaqlarımız işğala məruz qalmışdı, Xocalı soyqırımı kimi müsibət yaşamışdıq, minlərlə oğul-qızımızı şəhid vermişdik, yüz minlərlə soydaşımız məcburi köçkünə çevrilmişdi.

Ötən müddətdə xalq olaraq düçar olduğumuz ağrı-acılara birtəhər sinə gərməyə çalışdıq, adət-ənənəmizin unudulmasına yol verMədik və el bayramlarımızı, Novruzu adına layiq keçirməyə çalışdıq. Amma ürəyimizdəki o buruqluq, nisgil, Vətən yarası heç zaman keçmədi. Keçmiş məcburi köçkünlərimiz isə bu ağrı-acını ikiqat yaşadılar. Elə hey Şuşada, Laçında, Kəlbəcərdə, Ağdamda, Zəngilanda, Füzulidə, Qubadlıda, Cəbrayılda, Xankəndidə, Xocalıda, işğal altında olan bütün yurdlarımızda vaxtilə keçirdikləri bayramları dərin kədər hissi ilə xatırladılar, o yerlər üçün burunlarının ucu göynədi. Vətəndə qəribə çevrilən yüzminlərlə vətəndaşımız göz yaşları içərisində "Tanrım, gələn il Novruzu öz doğma ocağımızda, yurd-yuvamızda qeyd etməyi nəsib et bizə" - deyə, Allaha yalvardılar.

### Arzular çin oldu

Budur, artıq bütün dualarımızın çin olduğu, Azərbaycanın bütövlüyündən doğan fərəh, qürur, xoşbəxtlik içərisindəyik. Vətənimizin başındakı duman, çən-çiskin dağılıb, elimiz başdan-başa bayram libasına bürünüb.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusu, canlarını bu torpağa qurban verən müqəddəs şəhidlərimiz xalqımıza bayram ərməğan edib, keçmiş məcburi köçkünlərimizin yurda qayıdış ümidləri gerçəyə çevrilib. Minlərlə vətəndaşımız qayıdış köçləri ilə əzəli yurdlarına qovuşub. O torpaqlarda körpələr dünyaya gəlib, toy çalınıb, bir sözlə, həyat axarına düşüb.

Artıq dörd ildir ki, Qarabağ və Şərqi Zəngəzurda da bayram tonqalları çatılır, Novruz bayramı qeyd edilir.

Xalq olaraq bizi bu xoşbəxtliyə qəlbimizdəki Vətən sevgisi, bir də düşmənə sönməyən qəzəb hissimiz qovuşdurdu.

Hələ 2021-ci ildə Qalib Lider İlham Əliyev Novruz bayramında mədəniyyət paytaxtımıza səfər edərək illərdən sonra ilk dəfə Qarabağın mirvarisi Şuşada qələbə tonqalını alovlandıran zaman məhz bu məqama toxunmuşdu: "Bu torpağın sahibləri qayıdıblar, əllərində silah, bayraq, ürəklərində Vətən sevgisi. Vətən sevgisi bizi qələbəyə gətirdi. Vətən sevgisi, vətənpərvərlik qələbəmizin əsas amilinə çevrildi".

### "Novruz tonqalı da son təmizləmə işlərini görür"

2023-cü ilin sentyabrında qazandığımız Xankəndi Zəfəri Azərbaycan tarixinə qızıl hərflərlə həkk edildi. 1988-ci ildə Xankəndidə erməni quldurlarının başlatdığı separatizm xalqımıza çox müsibətlər yaşatdı, amma sındırmadı. Heç zaman ərazilərimizin işğalı ilə barışmadıq, Vətən uğrunda göz qırpmadan ölməyə razı gəldik, bütün dünyaya göstərdik ki, torpaqdan pay olmaz. "Dəmir yumruq" cəmi 23 saata xunta rejimini diz çökdürdü və Müzəffər Ali Baş Komandan Azərbaycanın ay-ulduzlu, üçrəngli bayrağını Xankəndidə, Xocalıda, Xocavənddə, Əsgəranda dalğalandırdı.

Beləliklə, 200 il idi ki, xalqımızın qanına susamış erməni faşizminin başı əzildi, Qarabağdakı quldur yuvası dağıdıldı, onların murdar ayağı müqəddəs torpağımızdan qazınaraq atıldı.

Xankəndidən bayram təbriklərini çatdıran Prezident İlham Əliyev də altı ay bundan əvvəl uğurla keçirilmiş antiterror əməliyyatının beynəlxalq hüququn, Azərbaycan xalqının əyilməz ruhunun təntənəsi olduğunu söylədi: "Fevralın 26-da mən Xocalıda xocalılarla birlikdə Xocalı memorial kompleksinin təməlini qoydum. Burada yerləşmiş, qanunsuz inşa edilmiş şeytan yuvası - dırnaqarası parlament binası və onun yanındakı terror təşkilatının binası fevralın 26-da sökülməyə başladı və yerlə-yeksan edildi. Separatçıların izi-tozu da qalmadı. Novruz tonqalı da son təmizləmə işlərini görür".

### Böyük xoşbəxtlik

Bəli, artıq hər anımız xoşbəxtliyə, sevincə köklənib, hər günümüz bayram coşqusu ilə keçir. Qədim el bayramımız Novruz da Azərbaycanın hər tərəfində coşqu ilə qeyd edilir. Bütün bölgələrimizdə olduğu kimi, Qarabağ və Şərqi Zəngəzurda da tonqallar çatılır, bayram süfrələri açılır, şadlıq edilir.

Bu əziz bayramda xalqımız şəhidlər xiyabanlarına yollanır, torpaqlarımız uğrunda canlarından keçən övladlarına əbədi minnətdarlığını bildirir, onların ruhlarına dualar edirlər.

Şükürlər olsun Tanrıya, düz bir qərinəlik ağrı-acıdan sonra Şuşa, Xankəndi zəfərləri sayəsində arzularımızın şah zirvəsi olan Vətənin bütövlüyünün fərəhi ilə Novruzu yurdumuzun hər yerində böyük coşqu, təmtəraqla keçirirₖ.

Ümumilikdə xalq olaraq yaşadığımız bütün bu hisslərin adı isə xoşbəxtlikdir. Necə ki, bunu Xankəndidə Zəfər meydanından Novruz tonqalı qalayan zaman Qalib Lider İlham Əliyev də dilə gətirib: "Əziz həmvətənlər, buradan xalqa təbriklərimizi çatdırmaq böyük xoşbəxtlikdir. Biz hamımız İkinci Qarabağ müharibəsindən sonra qürurla yaşayırıq. Biz hamımız fəxr edirik ki, biz özümüz ədaləti bərpa etdik, torpaqlarımızı işğallardan azad etdik, öz gücümüzü göstərdik və bundan sonra hər kəs bizimlə hesablaşmalıdır, əks təqdirdə, özü peşman olacaq".

# Daxili işlər naziri Şamaxı rayonunda vətəndaş qəbulu və sıra baxışı keçirib







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov martın 27-də və 28-də Şamaxı Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.

Nazir əvvəlcə Şamaxı rayonundakı Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Sonra Rayon Polis Şöbəsinin inzibati binasında Şamaxı, Qobustan, Ağsu, Göyçay, İsmayıllı şəhər və rayonlarından qəbula gələn 238 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Müraciətlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görülüb.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

34 Vətən müharibəsi iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 129 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

**DİN-in Mətbuat xidməti**

2_Layout 1 29.03.2024 8:35 Page 1



## İNSAN HÜQUQLARI ÜZRƏ MÜVƏKKİL (OMBUDSMAN) APARATININ NÜMAYƏNDƏLƏRİ HƏRBİ HİSSƏ İLƏ TANIŞ OLUBLAR





Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının əməkdaşları Fəzail Həsənov, Murad Babayev və Vəli Quliyev martın 14-də 25031 saylı hərbi hissədə olublar.

İlk olaraq, hərbi hissənin ərazisi ilə tanış olan nümayəndələr daha sonra komendant bölüyünə, yeməkxanaya, tibb məntəqəsinə, ərzaq anbarına və əsgər mağazasına ümumi baxış keçiriblər. Əsasən komendant bölüyünün şəxsi heyətinə onlar tərəfindən insan hüquqları, eləcə də hərbi qulluqçuların hüquqları, Ombudsmanın fəaliyyət istiqamətləri barədə məlumat verilib, mövcud hərbi qanunvericilik və hərbi nizamnamələr mövzusunda söhbətlər aparılıb.

Sonda qurumun əməkdaşları əsgər yeməkxanasında şəxsi heyətlə birgə nahar ediblər.

Qeyd edək ki, müvafiq tədbirlər planına əsasən, ilin sonunadək Daxili Qoşunların digər hərbi hissələrində Ombudsman Aparatının əməkdaşlarının şəxsi heyətlə görüşlər keçirmələri nəzərdə tutulur.

**Mətbuat xidməti**

## BAHARIN TƏRAVƏTİ, İLIQ NƏFƏSİ DAXİLİ QOŞUNLARIN HƏRBİ HİSSƏLƏRİNDƏ DƏ HİSS OLUNUB









Novruz bayramı ölkəmizə yazın gəlişini simvolizə edən, çox qədim zamanlardan xalq arasında bir ənənəyə çevrilən milli bayramdır. Minilliklər içərisindən keçib gələn bu el bayramı tarix boyu qadağalara və təqiblərə məruz qalsa da, öz gözəlliyini indi də saxlayır. Novruz Azərbaycan xalqının zəngin maddi və mənəvi dəyərlərinin mühüm hissəsini özündə ehtiva edən unikal mədəniyyət hadisəsidir. Bu bayrama tarixi inkişaf yönümündən baxdığımız zaman onun qədim mədəni köklərə və mənəvi qaynaqlara bağlı olduğu aydın görünür. 70 il tərkibində yaşadığımız sovet imperiyası öz ideologiyasına uyğun təbliğat apararaq xalqımızı tarixi keçmişindən, milli-mənəvi dəyərlərindən uzaqlaşdırmaq istəsə də, buna nail ola bilməyib.

Ölkə miqyasında coşqu ilə keçirilən el bayramımız hər il olduğu kimi, bu il də Daxili Qoşunların hərbi hissələrində təsdiq olunmuş plana əsasən yüksək səviyyədə qeyd olunub. Belə ki, daxili qoşunlar komandanının müavini – şəxsi heyət üzrə idarə rəisinin “Novruz bayramının qeyd edilməsinə dair” müvafiq göstərişinə əsasən, bayram günlərində şəxsi heyətin ziyalılarla görüşlərinin keçirilməsi, hərbi hissələrdə bilik yarışlarının, viktorinaların, eləcə də özfəaliyyət kollektivlərinin konsert proqramlarının təşkil edilməsi aidiyyəti vəzifəli şəxslər tərəfindən nəzarətdə saxlanılıb. Hərbi qulluqçular üçün bayram naharları hazırlanıb.

Qeyd edək ki, mart ayının 16-dan 23-nə kimi Ali Hərbi Məktəb, 25031, 99713, 67987, 16075 və 16076 saylı hərbi hissələrdə Nümunəvi göstərici hərbi orkestrin mahnı ansamblı tərəfindən bayram konsertləri verilib. Şəxsi heyətin mənəvi-psixoloji durumunun yüksəldilməsi, hərbi xidmətə həvəsinin artırılması məqsədilə təşkil olunan bu cür tədbirlər stimulverici amil kimi qiymətləndirilə bilər. Sözsüz ki, hər il Daxili Qoşunların komandanlığının diqqət və qayğısı ilə hərbi hissələrimizdə bayram tədbirlərinin belə təmtəraqla keçirilməsi eyni zamanda hərbi qulluqçuların mədəni-estetik zövqünün formalaşmasına, onlarda ruh yüksəkliyinin yaranmasına səbəb olur.

**kapitan Nigar Ağayeva**

## HƏRBİ PROKURORLUQ İŞÇİLƏRİ DAXİLİ İŞLƏR NAZİRLİYİNİN YÜKSƏK RÜTBƏLİ VƏZİFƏLİ ŞƏXSLƏRİ İLƏ BİRGƏ HƏRBİ HİSSƏLƏRDƏ OLUBLAR








Novruz bayramı ilə əlaqədar Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Mərkəzi Aparatının və ərazi hərbi prokurorluqlarının rəhbər vəzifəli şəxsləri Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının yüksək rütbəli zabitləri, hərbi hissələrin dislokasiya olunduğu müvafiq rayonların icra hakimiyyəti orqanlarının rəhbərləri ilə birgə Vətənin müxtəlif bölgələrində, o cümlədən işğaldan azad edilmiş tarixi torpaqlarımızda yerləşən hərbi hissə və bölmələrdə hərbi qulluqçularla görüşüblər.

Hərbi Prokurorluqdan AZƏRTAC-a bildirilib ki, görüş iştirakçıları Vətəni və milləti qarşısında misilsiz xidmətləri olan Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz və unudulmaz xatirəsini bir dəqiqəlik sükutla yad edib, qazilərə şəfa diləyiblər.

Sonra Ulu Öndər Heydər Əliyevin mükəmməl siyasətini dövrün tələblərinə uyğun davam etdirən Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin bütün istiqamətlər üzrə qazandığı uğurlardan, işğaldan azad olunmuş ərazilərimiz də daxil olmaqla regionlarımızın hərtərəfli inkişafından, Azərbaycanın əzəmətinin daha da artaraq dünya ölkələri sırasında böyük nüfuz və söz sahibinə çevrilməsindən, Silahlı Qüvvələrimizin qüdrətindən bəhs olunaraq, qazanılan uğurlarda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın zəngin fəaliyyətinin də mühüm əhəmiyyət kəsb etdiyi qeyd olunub. Eyni zamanda Vətən müharibəsində qazanılan möhtəşəm Qələbə və lokal xarakterli antiterror tədbirləri xüsusi vurğulanmaqla qürur dolu günlərin unudulmaz təəssüratları xatırlanıb.

Ardınca qonaqlar hüquqi maarifləndirici mövzularda çıxışlar edib, hərbi qulluqçuların suallarını cavablandırıb, onların qayğı və problemləri ilə maraqlanıblar. Həmçinin hərbi hissələrə müxtəlif bayram sovqatları, üzərinə düşən vəzifələri nümunəvi icra etməklə xidmətdə fərqlənənlərə isə qiymətli hədiyyələr təqdim olunub.

Sonda “Yaşıl dünya naminə həmrəylik ili” ilə əlaqədar müxtəlif ağaclar əkilib.

**AZƏRTAC**

## “DÖYÜŞ TƏLİMİNİN METODİKİ CƏHƏTDƏN DÜZGÜN KEÇİRİLMƏSİ VACİB ŞƏRTDİR”





67987 saylı hərbi hissənin döyüş hazırlığının qorunub saxlanılmasında xüsusi əhəmiyyət kəsb edən bölmələrindən biri də kapitan Emil Nadirovun komandiri olduğu xüsusi vasitələrin tətbiqi dəstəsidir. Dəstənin xidməti-döyüş fəaliyyəti hərbi hissə komandiri tərəfindən müsbət qiymətləndirilir.

Kapitan E.Nadirov bildirdi ki, qarşıya qoyulan xüsusi tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsinə hazır olmaq şəxsi heyətin əsas vəzifələrindən biridir. Keçirilən təlim və məşğələlərin, həmçinin aparılan tərbiyə işinin əsas məqsədini məhz bu amillər təşkil edir. Şəxsi heyətin döyüş və ictimai-siyasi hazırlığına, dəstədə daxili qayda-qanuna riayət edilməsinə, qarşıya qoyulan tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsinə cavabdehlik daşıyan komandir hərbi qulluqçuların öz vəzifələrinin icrasına hər zaman məsuliyyətlə yanaşdıqlarını nəzərimizə çatdırdı.

Dəstə komandiri görülən işlərdə komandir müavini-qərargah rəisi mayor Rəşad Məmmədovun fəaliyyətini xüsusi vurğuladı. Mayor R.Məmmədov bildirdi ki, dəstənin döyüş hazırlığının yüksəldilməsi üçün şəxsi heyətin döyüş təliminin metodiki cəhətdən düzgün keçirilməsi, mənəvi-psixoloji durumun yüksək olması əsas şərtlərdir.

O, dəstədə yüksək intizamın əldə olunması üçün şəxsi heyətə qarşı tələbkar olmağın, gündəlik xidməti-döyüş fəaliyyətinin nəzarətdə saxlanılmasının vacibliyini söylədi.

Bundan əlavə, dəstə komandirinin tərbiyə işləri üzrə müavini kapitan Məmməd Əhmədov keçirilən tərbiyə işi saatlarında yüksək intizama nail olunması və onun qorunub saxlanılması mövzusunda şəxsi heyətlə söhbətlər aparır, hərbi qulluqçuların mənəvi-psixoloji durumlarının yüksəldilməsi istiqamətində tədbirlər həyata keçirir.

Kapitan E.Nadirov keçirilən təlim və məşğələlərdə fəallıq nümayiş etdirən, funksional vəzifələrinin öhdəsindən layiqincə gələrək şəxsi heyətə nümunə olan hərbi qulluqçulardan baş leytenantlar Eldar Həsənov və Nicat Qəhrəmanov, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularından baş əsgər Ramazan Məhəmmədov, əsgərlər Xəyal Hümbətov, Ceyhun Lələyev, Elmir Beydullayev, İlkin Rəhimovun adlarını çəkdi.

Qeyd edim ki, dəstənin şəxsi heyəti 2023-cü ilin sentyabr ayının 19-dan 20-dək Qarabağda keçirilən lokal xarakterli antiterror tədbirlərində də uğurla iştirak edib, qarşısına qoyulan tapşırıqların öhdəsindən layiqincə gəlib.

Dəstə komandiri şəxsi heyətin bundan sonra da üzərinə düşən vəzifələri uğurla icra edəcəyinə, qarşıya qoyulan tapşırıqları yerinə yetirərkən peşəkarlıq göstərəcəyinə və qazandığı nailiyyətləri qoruyub saxlayacağına əminliyini ifadə etdi.

**kapitan Xədicə Hacızadə**

3_Layout 1 29.03.2024 9:55 Page 1



# 31 MART AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜDÜR

1813-cü və 1828-ci illərdə imzalanmış Gülüstan və Türkmənçay müqavilələri ilə Azərbaycan xalqının parçalanması və tarixi torpaqlarımızın bölünməsinin əsası qoyulub, sonrakı dövrdə isə həmin torpaqların özgəninkiləşdirmə prosesinə başlanılıb.

Qısa müddətdə ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirilib.

İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq, öz havadarlarının himayəsi altında "Erməni vilayəti" adlandırılan inzibati bölgünün yaradılmasına nail olublar. Süni ərazi bölgüsü, əslində, azərbaycanlıların öz torpaqlarından qovulması, Azərbaycan xalqına qarşı soyqırım siyasətinin həyata keçirilməsinə şərait yaradıb. Azərbaycan torpaqlarında "Böyük Ermənistan" ideyasını reallaşdırmaq üçün erməni xalqının tarixinin saxtalaşdırılmasına başlanılıb.

"Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı kütləvi qırğınlar həyata keçiriblər. Bakıdan başlanan kütləvi qırğınlar Azərbaycanı və indiki Ermənistan ərazisindəki Azərbaycan kəndlərini əhatə edib. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirilib.

Birinci Dünya müharibəsi, Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər bu dəfə öz mənfur niyyətlərini bolşevik bayrağı altında reallaşdırmağa çalışıblar. 1918-ci ilin mart ayından etibarən Bakı Kommunası tərəfindən əksinqilabçılarla mübarizə şüarı altında Bakı quberniyasının azərbaycanlılardan təmizlənməsi planı gerçəkləşdirilib.

Həmin günlərdə Bakı şəhərində, habelə Bakı quberniyasına daxil olan Şamaxı, Quba və digər şəhər və qəzalarda on minlərlə dinc sakin məhz etnik və dini mənsubiyyətinə görə qətlə yetirilib, yaşayış məntəqələri dağıdılıb, mədəniyyət abidələri, məscid və qəbiristanlıqlar yerlə-yeksan edilib. Sonrakı dövrlərdə daha da azğınlaşan erməni millətçiləri qeyri-insani əməllərini davam etdirib, Qarabağ, Zəngəzur, Naxçıvan, Şirvan, İrəvan və digər bölgələrdə kütləvi qətllər, talanlar və etnik təmizləmələr həyata keçiriblər.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirilib və Nazirlər Şurası iyulun 15-də bu faciənin tədqiqi məqsədilə Fövqəladə İstintaq Komissiyasının yaradılması haqqında qərar qəbul edib. Komissiya mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırıb. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradılıb.



1919 və 1920-ci illərin mart ayının 31-i iki dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilib. Lakin Xalq Cümhuriyyətinin süqutundan sonra həmin proses dayandırılıb, baş verənlərin sona qədər tədqiq edilməsinin və hadisələrə müvafiq siyasi-hüquqi qiymət verilməsinin qarşısı alınıb. Yalnız 80 il sonra - 1998-ci il martın 26-da Ümummilli Lider Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanda həmin dəhşətli hadisələrə adekvat siyasi qiymət verilib və 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edilib. Fərmanda deyilir: "Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdikləri soyqırım siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə - 1918-ci il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırımı hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir".

Ümummilli Lider Heydər Əliyev 31 mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar deyib: "Xalqımıza qarşı törədilmiş soyqırımı haqqında həqiqətləri real faktlar, dəlillər əsasında dünya dövlətlərinə, nüfuzlu beynəlxalq təşkilatlara çatdırmaq, saxta erməni təbliğatı nəticəsində formalaşmış yalan təsəvvürləri dəyişdirmək, ona hüquqi-siyasi qiymət verdirmək nə qədər çətin olsa da, şərəfli və müqəddəs bir iş kimi bu gün də, gələcəkdə də davam etdirilməlidir. Bu, soyqırımı qurbanlarının xatirəsi qarşısında indiki nəslin müqəddəs borcudur".

Son illər bu sahədə aparılmış araşdırmalar sayəsində çoxlu sayda yeni fakt və sənəd toplanılıb. Quba şəhərində tapılan kütləvi məzarlıq bu faciənin qanlı epizodlarından biridir. Quba soyqırımı məzarlığı 2007-ci il aprelin 1-də ərazidə torpaq işləri görülərkən aşkar edilib.

2009-cu ildə Nazirlər Kabinetinin Sərəncamı ilə "Quba rayonunda kütləvi qətl qurbanlarının xatirəsinin əbədiləşdirilməsinə dair tədbirlər planı" təsdiq edilib, aşkar olunmuş kütləvi məzarlığın yerləşdiyi ərazidə monumental xatirə kompleksinin ucaldılması və abadlıq işlərinin aparılması qərara alınıb. 2007-ci ilin iyulundan etibarən Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları tərəfindən kütləvi məzarlıqda geniş tədqiqat işlərinə başlanılıb, 2008-ci ilin sentyabrında isə tədqiqat işləri başa çatdırılıb. Tədqiqat nəticəsində məzarlığın 1918-ci ildə ermənilərin yerli dinc əhaliyə qarşı törətdikləri soyqırımla bağlı olduğu müəyyən edilib. Tədqiqat işlərinin nəticəsi olaraq məzarlıqda müxtəlif yaş qruplarına aid 400-dən çox insan cəsədinin qalıqları aşkar edilib. Onlardan 50-dən çoxu uşaqlara, 100-dən çoxu qadınlara, qalanları isə əsasən yaşlı kişilərə aiddir. Müəyyən edilib ki, məzarlıqda azərbaycanlılarla bərabər, Qubada yığcam halda yaşayan ləzgi, yəhudi, tat və digər etnik qrupların nümayəndələri də amansızcasına qətlə yetirilərək basdırılıblar.

Ərazidə yaradılmış Quba Soyqırımı Memorial Kompleksinin 2013-cü il sentyabrın 18-də açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2018-ci il yanvarın 18-də "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" Sərəncam imzalayıb. Sərəncamda deyilir: "Üzə çıxmış tarixi faktlar 1918-ci ilin mart-aprel aylarında və sonrakı dövrlərdə erməni millətçilərinin həyata keçirdikləri qanlı aksiyaların coğrafiyasının daha geniş və faciə qurbanlarının sayının qat-qat çox olduğunu sübut etmişdir".

**Azərbaycan xalqı və dövləti soyqırım qurbanlarının xatirəsini daim əziz tutur, bütün dünyanı erməni faşizminin iç üzünü görmək üçün bu tarixi hadisələrdən ibrət götürməyə çağırır.**

**President.az saytının materialları əsasında hazırlanıb.**

*Şəhidlərimiz*

# QEYRƏTLİ OĞUL, MƏTİN DÖYÜŞÇÜ VƏ ETİBARLI SİLAHDAŞ ÖMRÜ YAŞADI...

Xalqımız tarix boyu doğma torpağı uğrunda çətin sınaqlara sinə gərib və böyük fədakarlıq göstərib. Əcdadlarımızın mirası olan yurdlarımız müqəddəs bilinərək nəsillərdən-nəsillərə qorunub, onların müdafiəsi naminə qurbanlar verilib. Bizim dünyagörüşümüz və həyat fəlsəfəmizdə Vətən anlayışı həmişə xüsusi yer tutub. Vətən and yerimiz, ona sədaqət isə ləyaqətimizdir.

44 günlük Vətən müharibəsi zamanı düşmən üzərində qürur duyduğumuz hərbi zəfər qazanmışıq. 2023-cü ilin sentyabr ayının 19-dan 20-dək Qarabağ bölgəsində keçirilmiş antiterror tədbirləri nəticəsində isə ölkəmizin suverenliyi tam bərqərar edilib. Beləliklə, Ermənistan tərəfindən torpaqlarımızın işğalına və ərazimizdə erməni separatizminə son qoyulub. Döyüşlərə atılmış qeyrətli, mübariz oğullarımız öz canları və qanları bahasına şanlı qalibiyyəti arzudan gerçəyə çeviriblər.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 12 nəfər hərbi qulluqçusu antiterror tədbirləri zamanı döyüş tapşırıqlarını yerinə yetirərkən şəhidlik zirvəsinə ucalıb. Bu 12 nəfər 17072 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsində xidmət edib, bir-birini yaxından tanıyan silahdaş olub, eyni gündə Qarabağ bölgəsinə göndərilib, birlikdə mətinliklə vuruşub. Onların taleyinə düşmən önündə sinələrini sipər etmək və döyüşçü qardaşlığı yazılıb.

Antiterror tədbirlərindən sağ qayıtmayan hərbi qulluqçularımızdan biri gizir Rəcəbov Vaqif Yaqub oğludur. O, 1982-ci il fevralın 23-də Naxçıvan şəhərində doğulub. Yaqub Orucov və Məryəm Rəcəbova iki oğul övladı böyüdərək boya-başa çatdırıblar. Emil və Vaqif milli ruhda tərbiyə olunublar. Qardaşı ondan iki yaş böyükdür. Ailə üzvlərinin sözlərinə görə, Vaqif istiqanlı, təmkinli, zəhmətkeş, xeyirxah, özünə qarşı tələbkar idi. İdmana həvəslə yanaşıb, kiqboksinq növü üzrə məşqlərə gedib, fiziki hazırlığını daim diqqətdə saxlayıb. Həmçinin məharətlə şahmat oynayıb.

Naxçıvan şəhərindəki Eynəli bəy Sultanov adına 7 saylı tam orta məktəbdə 6-cı sinfədək, sonra idman-hərbi təmayüllü oğlanlar gimnaziyasında (hazırda Naxçıvan Qarnizonunun tam orta məktəbi) təhsil alıb. Yeniyetmə ikən gələcəkdə təyyarəçi olmağı arzulayıb, səmanı fəth edən bu peşə sahiblərinə rəğbət bəsləyib. Ancaq bu arzusuna qovuşa bilməyib.

2000-ci ilin aprel ayında Vaqif müddətli həqiqi hərbi xidmətə çağırılıb. Müdafiə Nazirliyinin Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən hərbi hissələrindən birində xidmət keçib. 2001-ci ilin yanvar ayında ona "kiçik çavuş" hərbi rütbəsi verilib. O, hərbi xidmət borcunu vicdanla yerinə yetirərək 2001-ci ilin oktyabr ayında ordu sıralarından ehtiyata buraxılıb. Hərbi xidmət onun həyata baxışlarına təsirsiz qalmayıb,



iradəsini möhkəmləndirib, qarşısına çıxan çətinliklərin öhdəsindən gəlmək bacarığı formalaşdırıb, hərbçi peşəsinə dərin maraq yaradıb.

2009-cu ilin noyabr ayında Vaqif öz arzusu ilə DİN-in Daxili Qoşunlarının sıralarında müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. 12565 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin avtomobil yarımqrupunun mexanik-sürücüsü və sürücüsü vəzifələrinə təyin edilib. Türkiyənin "Otakar" şirkəti tərəfindən keçirilən "Kobra" zirehli avtomobilinə texniki qulluq və onun idarə edilməsi kursuna qatılıb, peşə bacarığını artırıb. Xüsusi təyinatlı olaraq paraşütlə tullanıb, bu sahəyə aid 1-ci dərəcəli döş nişanını daşıyıb.

2013-cü ilin aprel ayında Vaqif 17072 saylı hərbi hissəyə keçirilərək orada xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi bölməsinin sürücü-atıcısı, döyüş təminatı yarımqrupunun və xüsusi vasitələrin tətbiqi bölməsinin operatoru (TOMA) vəzifələrində xidmət edib. 2014-cü ilin iyul ayında ona növbəti "çavuş" hərbi rütbəsi verilib. Təyin edildiyi bütün vəzifələrdə komandanlığın etimadını doğruldub, komandirləri tərəfindən dəfələrlə mükafatlandırılıb. Silahdaşlarının hörmətini qazanıb.

Daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının 10 mart 2012-ci il tarixli müvafiq əmri ilə hərbi qulluqçu "Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 20 illiyi" yubiley döş nişanına layiq görülüb.

2015-ci ilin mart-oktyabr aylarında o, Daxili Qoşunların Ali Hərbi Məktəbində gizirlərin hazırlanması kursunu keçib. Beləliklə, "gizir" hərbi rütbəsinə yüksəlib.

Daxili işlər nazirinin 26 iyun 2018-ci il tarixli müvafiq əmri ilə gizir V.Rəcəbov III dərəcəli "Qüsursuz xidmətə görə" medalı ilə təltif olunub.

Vətən müharibəsi dövründə Vaqif dəstənin qarşısına qoyulan tapşırıqlara uyğun olaraq, Gəncə şəhərində komendant postlarında məsuliyyət və sayıqlıq göstərərək xidmət aparıb. Həmin vaxt erməni işğalçıları Gəncəni bir neçə dəfə müxtəlif raketlərdən şiddətli atəşə tutublar, onlarla dinc sakin həlak olub, yaşayış evləri dağıdılıb. Şəhərin əhalisi kimi, orada xidmət edən hərbi qulluqçularımızın həyatı da ciddi təhlükəyə məruz qalıb.

Ön cəbhəyə göndərilməsi üçün müraciət etsə də, bunun reallaşmaması Vaqifə rahatlıq verməyib. Düşmən üzərində hərbi zəfərimizin sevincini yaşayıb. Silahdaşlarına deyib ki, şəhidlərin və qazilərin yolunun davamçısı olmaq bizim də üzərimizə düşür.

Müharibədən sonra ayrı-ayrı tarixlərdə Vaqif işğaldan azad edilmiş Laçın, Zəngilan, Kəlbəcər rayonlarına və Şuşa şəhərinə təhlükəsizlik tədbirlərinin təmini məqsədilə qısamüddətli ezam olunub. Verilən tapşırıqları peşəkarlıqla yerinə yetirib.

2023-cü ilin 19-20 sentyabr tarixlərində Qarabağ bölgəsində Silahlı Qüvvələrimiz tərəfindən Daxili Qoşunların iştirakı ilə erməni silahlı birləşmələrinə qarşı keçirilən lokal xarakterli antiterror tədbirlərinə polkovnik-leytenant Rəşad Hüseynovun komandiri olduğu xüsusi vasitələrin tətbiqi dəstəsinin şəxsi heyəti də qatılıb. Sentyabrın 19-dan 20-nə keçən gecə dəstənin bir qrup hərbi qulluqçusu Laçın rayonunun Nağdalı kəndindən Kəlbəcər rayonunun Vəngli kəndi (hazırda bu kənd Ağdərə rayonuna daxildir) istiqamətinə avtomobillərlə hərəkətə başlayıb. Hərəkət zamanı erməni işğalçılarının ilk hücumu dəf edilərək atəş nöqtələri susdurulub. Döyüş tapşırığının icrası davam etdirilib, Vəngli kəndinə bir neçə kilometr məsafə qaldıqda düşmən pusqusuna düşüblər. Yolun kənarlarından müxtəlif çaplı silahlarla qəfil atəşə məruz qalmalarına baxmayaraq, döyüşçülərimiz yerindəcə mövqelənərək erməni terrorçularına tutarlı cavab zərbəsi endiriblər. İtki verən düşmən pusqu qurduğu ərazidən geri çəkilib. Vaqif son nəfəsinədək cəsurluqla vuruşub, ona yaxın cinahda işğalçıların arxasına sızmağa cəhd göstərib, lakin əvvəlcə ayağından, ardınca başından ağır yaralanaraq şəhid olub. Dəstə komandiri və bəzi döyüşçü yoldaşları üçün də bu, son döyüş idi. Onlar şəhadət şərbətini içiblər.

12565 saylı hərbi hissənin sabiq hərbi qulluqçusu, ehtiyatda olan polkovnik-leytenant Elnur Tarışov, antiterror tədbirlərinin



iştirakçıları: 17072 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin komandirinin müavini-qərargah rəisi kapitan Həmid Ağayev, dəstənin xüsusi vasitələrin tətbiqi bölməsinin komandirinin müavini baş leytenant Elnur Şəfiyev, ehtiyatda olan gizir Səxavət Zeynalov, dəstənin post-patrul xidməti bölməsinin xüsusi vasitələrin tətbiqi qrupunun yarımqrup komandiri kiçik çavuş Bakir Paşayev, həmin qrupun atıcısı çavuş Babahəsən Kərimov, dəstənin xüsusi vasitələrin tətbiqi bölməsinin baş sürücüsü (TOMA) kiçik çavuş İlkin Nəsibov, sürücü-atıcısı kiçik çavuş Şəhriyar Rüstəmov Vaqifin xidmət və döyüş yolu barədə məlumatların toplanmasına köməklik göstərdilər. Silahdaşları onun müsbət şəxsi keyfiyyətlərə, peşəkar hazırlığa malik, təcrübəli, intizamı ilə seçilən, vətənpərvər, döyüş ruhlu hərbi qulluqçu olduğunu diqqətə çatdırdılar. Təlimlərdə döyüş hazırlığını yüksəltməyə çalışdığını, bölmələrarası yarışlarda öncüllərdən olduğunu, ictimai asayişin mühafizəsi, koronavirus pandemiyası ilə əlaqədar karantin rejiminin təmin edilməsi üzrə tapşırıqları qətiyyətlə yerinə yetirdiyini bildirdilər. Antiterror tədbirlərində mərdliklə iştirak etdiyini, hərbi anda sadiq qaldığını vurğuladılar.

22 sentyabr 2023-cü il tarixli ölüm haqqında şəhadətnamədə Vaqifin 20 sentyabr 2023-cü ildə döyüş meydanında hərbi əməliyyat nəticəsində odlu silahla törənmiş zədələnmələr, baş beyinin diffuz travması səbəbindən şəhid olduğu faktı öz əksini tapıb.

Hərbi qulluqçumuz 21 sentyabr 2023-cü ildə, anasının doğum günündə Naxçıvan şəhərinin qəbiristanlığındakı şəhidlər məzarlığında torpağa tapşırılıb.

Azərbaycan Respublikası Prezidentinin 7 noyabr 2023-cü il tarixli müvafiq sərəncamları ilə gizir Vaqif Rəcəbov ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilib.

Qeyd edim ki, Naxçıvan şəhəri üzrə şəhidlərin ümumi siyahısında 53 nəfərin adı qeydə alınıb. Döyüşçünün qohumu Əli Səmədov 1992-ci ildə Sədərək ətrafındakı döyüşlər zamanı şəhidlik zirvəsinə ucalıb. Bu nəslin ikinci şəhidi Vaqifdir. Onun babası mərhum Məmməd Rəcəbov polis əməkdaşı olub. Atası Y.Orucov 2021-ci ildə ürək tutmasından vəfat edib.

Naxçıvan şəhərində Orucovlar ailəsinin yaşadığı mənzildə Vaqifin xatirə guşəsi düzəldilib. Şəhərdəki 5, 7, 14 saylı tam orta məktəblərdəki tədris siniflərinə şəhidin adı verilib.

Şəhidin anası M.Rəcəbova suallarımıza cavab olaraq bunları dedi: "Oğlumla qürur duyuram, onun ucaldığı məqam hər döyüşçüyə qismət olmur. Vətənini sevərək, peşəsinə can yandıraraq yaşadı, torpaqlarımızın yağı tapdağında qalmaması üçün həyatını fəda etdi. Şəhidlərimizin məzarları nurla dolsun! Allah bütün hərbçilərimizi qorusun! Onlar olmasa, biz evimizdə rahat yaşaya bilmərik".

Vaqifin Aytən, Nurtən və Nuray adlı övladları var. Həyat yoldaşı Elnurə Rəcəbova onun qayğıkeş, diqqətcil ailə başçısı, mehriban ata olduğunu söylədi. Sonuncu dəfə 2023-cü il sentyabrın 18-də evə gələrək əzizləri ilə sağollaşıb, özlərindən muğayat olmağı tapşırıb.

Doğmaları və silahdaşları Vaqifin xatirəsini yaşadacaqlar. Bu gün sıralarımızda belə oğulların fədakarlığından ruhlanan layiqli davamçıları var, gələcəkdə də yetişəcəkdir.

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

# QƏBƏLƏ DÖVLƏT TARİX-BƏDİİ QORUĞUNA EKSKURSİYA TƏŞKİL EDİLİB

Martın 22-də 17071 saylı hərbi hissənin tərbiyə işləri üzrə bölməsinin rəisi-baş təlimatçısı kapitan Elşən İbadovun rəhbərliyi ilə 28 nəfərdən ibarət şəxsi heyət Qəbələ Dövlət Tarix-Bədii Qoruğunun ərazisində yerləşən Arxeoloji Mərkəzlə tanış olub.




Qəbələ Dövlət Tarix-Bədii Qoruğunun direktoru Zahir Kərimov tərəfindən hərbi qulluqçularımıza Arxeoloji Mərkəzin fəaliyyəti və burada nümayiş etdirilən tarixi tapıntılar haqqında ətraflı məlumat verilib. Bildirilib



ki, 2005-ci ildən etibarən SEBA (Seul-Bakı) Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının təşəbbüsü və maliyyə dəstəyi əsasında, Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun arxeoloqlarının iştirakı, 2009-cu ildən isə Cənubi Koreyadan olan mütəxəssislərin birgə fəaliyyəti ilə qoruq ərazisində arxeoloji qazıntılar başlanıb. Aşkar edilən arxeoloji tapıntılar konservasiya olunub, məlumat lövhələri quraşdırılıb.

2014-cü ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Qəbələyə səfəri zamanı Arxeoloji Mərkəzin rəsmi açılışı olub. Mərkəz iki sərgi salonu (muzey), müasir tipli bərpa laboratoriyası, konfrans zalı, kitabxana, arxeoloji fond və yardımçı otaqlardan ibarətdir. Ərazidə aparılan arxeoloji qazıntılar zamanı aşkar olunan maddi mədəniyyət nü-



munələri qeydiyyata alınaraq mərkəzin fonduna təhvil verilir və sərgi salonunda ziyarətçilərə nümayiş etdirilir. Mərkəzdə respublika və beynəlxalq əhəmiyyətli toplantılar keçirilir.

Sərgilənən tarixi-mədəni irsimizə aid arxeoloji materiallar maraq doğurub. Hərbi qulluqçularımız Qəbələnin tarixi, memarlığı, etnoqrafiyası və folkloru barədə məlumatlandırılıblar. Onlara “Qəbələ şəhidləri” kitab guşəsi də təqdim edilib.

Daha sonra Arxeoloji Mərkəzin akt zalında “Qafqaz Albaniyasının paytaxtı - Qəbələ” sənədli filmi izlənilib.

Həmçinin qoruğun tarixi məkanlarından olan Səlbir və Qala ərazilərinə gəzinti təşkil edilərək aparılmış arxeoloji qazıntı sahələri də göstərilib. Hərbi qulluqçularımızı maraqlandıran suallar qoruğun əməkdaşları tərəfindən cavablandırılıb.

Direktor Z.Kərimov ərazidə aparılmış arxeoloji qazıntılara həsr olunan kitabı şəxsi heyətə hədiyyə edib. Ekskursiyanın sonunda xatirə şəkli çəkdirilib.

**17071 saylı hərb hissənin ştatdankənar müxbir postu**

# “TAPŞIRIQLARIN YERİNƏ YETİRİLMƏSİ ÜÇÜN LAZIMİ ŞƏRAİT VƏ AVADANLIQLAR MÖVCUDDUR”

Daxili Qoşunların avtomobil və zirehli texnika təmiri bazası uzun illərdir uğurla fəaliyyət göstərir. Baza öz işini daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının müvafiq əmri ilə təsdiq edilmiş “Daxili





Qoşunların avtomobil və zirehli texnika təmiri bazasının Əsasnaməsi”nin tələblərinə əsasən təşkil edir.

Təmir bazasının əsas vəzifəsi Daxili Qoşunların balansında olan nəqliyyat vasitələrinin təmirinin həyata keçirilməsidir. Bazanın şəxsi heyəti hərbi hissələrdə istismar müddəti başa çatmış, ləğv olunması və söküləməsi barədə qərar verilmiş nəqliyyat vasitələrinin, habelə onların aqreqatlarının saf-çürük edilməsində iştirak edir. Bundan əlavə, təmir işlərinin texnoloji cəhətdən düzgün aparılması, bu zaman qabaqcıl təcrübədən istifadə edilməsi, eləcə də təhlükəsizlik qaydalarına ciddi riayət olunması qarşıya qoyulan mühüm tapşırıqlardandır.

Avtomobil və zirehli texnika təmiri bazasının rəisi kapitan Vasif Ələsgərov bildirdi ki, bazanın üzərinə düşən əsas vəzifələr qoşunların balansında olan bütün növ texnikalarda təmir işlərinin aparılması, zərurət yarandıqda təcili təxirəsalınmaz xidmət göstərilməsidir. Bazanın fəaliyyəti Daxili Qoşunlar komandanlığının xüsusi diqqət mərkəzindədir. Burada qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsi üçün lazımi şərait və avadanlıqlar mövcuddur. Təmir olunan nəqliyyat vasitələrinin üzərində təmir işləri texniki şərtlərin və təhlükəsizlik qaydalarının tələblərinə əsasən həyata keçirilir.

Təmir bazasında daxili qayda-qanuna, müəyyən edilmiş iş rejiminə ciddi riayət olunur.

Baza rəisi nümunəvi xidmətilə seçilən hərbi qulluqçulardan texniklər - gizir Tural Vəliyev, baş çavuş Polad Əsədov, baş çavuş Vüsal Qasımzadə, sınaqçı-sürücü baş çavuş Emil Kamilov, anbar rəisi baş çavuş Əli Rəhimovun adlarını qeyd etdi.

Biz də, öz növbəmizdə, avtomobil və zirehli texnika təmiri bazasının şəxsi heyətinə bundan sonrakı xidməti fəaliyyətində uğurlar arzulayırıq.

**kapitan Xədicə Hacızadə**

# GƏLƏCƏYİMİZİ BİRLİKDƏ DÜŞÜNƏK, NARKOMANİYAYA “YOX” DEYƏK!

Müasir dövrümüzdə cəmiyyəti düşündürən və narahat edən ən dəhşətli problemlərdən biri də narkomaniyadır.

Narkotik vasitələrdən istifadə ailələrin dağılmasına, cinayətkarlığın artmasına, cəmiyyətdə ən böyük bəlalardan olan QİÇS (Qanda İmmun Çatışmazlığı Sindromu) xəstəliyinə gətirib çıxarır. Narkotik vasitələr insanlarda asılılıq yaratdığı üçün narkotikin vaxtı çatdıqda o mütləq qəbul edilməlidir. Narkomanın isə narkotik vasitəni almağa pulu olmadıqda o, hər cür vasitəyə, oğurluğa, adam öldürməyə və digər cinayətlərə əl ata bilər.

Bəşəriyyəti düşündürən bu bəla ilə mübarizə sahəsində Azərbaycan Respublikasında da məqsədyönlü işlər aparılır.

Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2019-cu il tarixli Sərəncamı ilə “Narkotik vasitələrin, psixotrop maddələrin və



onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı” təsdiq edilib.

Dövlət Proqramından irəli gələn məsələlərin həyata keçirilməsi məqsədilə Daxili Qoşunlarda Azərbaycan Respublikasının daxili işlər naziri tərəfindən təsdiq edilmiş 16 avqust 2019-cu il tarixli tədbirlər planının müvafiq bəndlərinin vaxtlı-vaxtında icrası təmin olunur.

Şəxsi heyət arasında narkomanlığın cəmiyyətə və insan sağlamlığına ziyanı barədə təbliğat işinin gücləndirilməsi məqsədilə bütün dərəcəli hərbi qulluqçularla hər rüb əlavə məşğələ planlaşdırılıb keçirilir.

Bundan əlavə, Daxili Qoşunların hərbi hissələrinin yerləşdiyi şəhər və rayonlarda hərbi qulluqçular arasında sağlam həyat tərzinin təbliğ olunması məqsədilə səhiyyə, o cümlədən daxili işlər orqanlarının əməkdaşları ilə görüşlər təşkil olunur, izahedici söhbətlər aparılır.

Bəşəriyyətin dəhşətli bəlası olan narkomaniya ilə mübarizə nəinki dövlətin, həmçinin bu dövlətdə yaşayan hər bir vətəndaşın borcudur.

**Mətbuat xidməti**

NÜMUNƏVİ XİDMƏT

# TƏCRÜBƏLİ BAŞÇAVUŞ

25032 saylı hərbi hissənin intizamlı, bacarıqlı hərbi qulluqçularından olan gizir Namiq Məmmədov 1996-cı ilin mart ayının 14-də Sabirabad rayonunun Ulucalı kəndində anadan olub. 2002-2011-ci illərdə Böyük Ağayev adına Ulucalı kənd tam orta məktəbində təhsil alıb. Burada 9-cu sinfi bitirdikdən sonra, 2011-ci ildə Sabirabad Dövlət Sosial-İqtisad Kollecinin fiziki tərbiyə müəllimliyi ixtisasına qəbul olunub. 2015-ci ildə kolleci bitirdikdən sonra həmin ilin iyul ayında müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2015-2017-ci illərdə Müdafiə Nazirliyinin Bakı şəhərində yerləşən “N” saylı hərbi hissəsində xidmət keçib. 2017-ci ilin may ayından Daxili Qoşunların sıralarında xidmətini davam etdirir. Müxtəlif vəzifələrdə xidmət edib.



2019-cu ilin yanvar ayından komendant bölüyünün başçavuşu vəzifəsindədir. O, vəzifələrinin, eləcə də verilən tapşırıqların icrasına son dərəcə ciddi və məsuliyyətlə yanaşır. Hərbi nizamnamələrin tələblərinə qeyd-şərtsiz əməl edir. Komendant bölüyündə xidmətin çətin, lakin şərəfli olduğunu söyləyən gizir N.Məmmədov bölük komandiri baş leytenant Murad Söhbətli tərəfindən bacarıqlı, əzmkar hərbi qulluqçu kimi xarakterizə olunur. Hərbi bilik və bacarıqlarını artırmaq üçün səylə çalışır. Kollektiv arasında nüfuza malikdir.

Öz icraçılığı ilə şəxsi heyətə hər zaman nümunə olmağa çalışan hərbi qulluqçumuz vətənpərvərlik əqidəsinə sadiqdir. O, bundan sonra da Daxili Qoşunların sıralarında şərəfli xidmətini uğurla davam etdirmək arzusundadır.

**25032 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

# MƏSULİYYƏTLİ VƏ İNTİZAMLI BAŞ ATICI

Daxili Qoşunların Təlim mərkəzində müddətli həqiqi hərbi xidmətdə olan əsgər Vaqif Həsənov 2005-ci il aprelin 22-də Şəmkir rayonunun Dəllər Cəyir kəndində doğulub. Doğma kəndində yerləşən Bəhlul Rüstəmov adına tam orta məktəbdə təhsil alıb. Özünün dediyinə görə, hələ uşaqlıq illərindən avtomobillərə olan marağı onu məktəbin 9-cu sinfindən avtomobil elektriki sahəsinə gətirib çıxardıb. Həyatda ən böyük həvəsi, marağı peşəkar avtomobil mütəxəssisi kimi yetişməkdir. 2023-cü ildən Daxili Qoşunların sıralarında müddətli həqiqi hərbi xidmətdədir. Hazırda Daxili Qoşunların Təlim mərkəzinin təminat bölüyünün komendant taqımının baş atıcısı vəzifəsindədir. O, hərbi xidmət borcunu vicdanla yerinə yetirir. Keçirilən təlim və məşğələlərdə çalışqanlığı ilə fərqlənir. Əsgər yoldaşları arasında özünə hörmət qazanıb. Komandirləri onun nizam-intizamını və icraçılıq qabiliyyətini müsbət xarakterizə edirlər.



Üzərinə düşən vəzifələrin icrasına diqqətlə yanaşan əsgər V.Həsənov ona təhkim olunmuş cihazların, elektrik qurğularının və avadanlıqların saxlanılmasına, texniki sazlığına və fasiləsiz işləməsinə, düzgün istifadə olunmasına, vaxtlı-vaxtında qulluq və təmirinə, həmçinin hədəf meydanında olan qurğuların qaydasında olmasına nəzarət edir. Avadanlıqların iş prinsipini, montaj qaydasını, quruluşunu və vəziyyətini bilir, onların düzgün istismarını təmin edir. Atışdan əvvəl və sonra cihaz, habelə texnikalara yoxlama baxışı keçirir, nasazlıq aşkar edildikdə onun aradan qaldırılması üzrə tədbirlər görülməsi üçün komandirinə məruzə edir.

Vətənə, dövlətə xidmətin hər bir insan üçün qürurverici olduğunu düşünən əsgərimiz bu yolda hər cür fədakarlığa hazırdır və gələcək həyatında da vətənpərvərlik əqidəsinə sadiq qalacağını bildirir.

**kapitan Nigar Ağayeva**

# HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

### Almaniya Avstraliyaya “Boxer Block 2” ZTR sifariş edib

Almaniya “Rheinmetall” şirkətinin Avstraliya filialına 30 mm-lik toplu “Boxer” ağır dəstək maşınları sifariş edib. “Poliqon” “Rheinmetall”a istinadən xəbər verir ki, ümumilikdə Almaniya sözügedən şirkətin Avstraliya filialından 123 ədəd ağır dəstək maşını sifariş etməyi planlaşdırır.



İmzalanmış müqavilənin ümumi dəyəri 2,7 milyard avro təşkil edir ki, bu da zirehli texnikanın, ehtiyat hissələrinin və müvafiq material dəstək paketinin alınmasına ayrılacaq. Müqavilə şərtlərinə əsasən, ilk ağır dəstək maşınlarının çatdırılmasına 2025-ci ildə başlanacaq.

Ümumilikdə “Boxer” 8×8 təkər formullu, çoxməqsədli ZTR-dir. Maşın Almaniya-Niderland birgə layihəsidir. ZTR avtomatik silahlar və ya tank əleyhinə raketlər də daxil olmaqla müxtəlif silahları daşımağa imkan verən modul quruluşa malikdir. Bundan başqa, “Boxer” ZTR bazasında səyyar komanda məntəqələri, zirehli tibbi maşınlar, kəşfiyyat maşınları və s. istehsal edilir.

# Allah rəhmət eləsin

Daxili Qoşunların komandanlığı mayor Hüseyn Rəfiyevə **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

17071 saylı hərbi hissənin komandanlığı mayor Ramin Təhməzova **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

17071 saylı hərbi hissənin komandanlığı kapitan Raqif Omarova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

99713 saylı hərbi hissənin komandanlığı baş çavuş Eldəniz Məmmədova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, R.Hüseynov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000